

Pavel
ZAQREBELNI

# "Roksolana" romanından parça

Onda cəlbedici nəsə vardı. Bəlkə saçlarının qırmızıya çalan sarısı, bəlkə ilan kimi qıvrılıb-açılan bədəninin zərifliyi idi onu cazibədar edən. Belə olmasaydı, vəhşi tatar onu Kafəyə gedən yolda qiymətli daş-qaş kimi qorumazdı. Hətta çox ciddi müəllimi Skarbski də ürəyində alışan ocağa rəğmən, tez-tez qəlbin xilasından, həm də bədənin, cismin (o bunu ruhun paltarı adlandırırdı) gözəl xəlq olunmasından və bundan ən çox uca Yaradanın özünün razı qalmasından söz açardı. "Cism - bizim mövcudluğumuzun əsas hissəsidir. Biz gərək ruhumuza deyək ki, özünə qapanıb qalmasın, cismimizə nifrət etməsin və onu tək qoymasın, cismimizə nifrət etməsin və onu tək qoymasın, əksinə, onunla bir vəhdət təşkil etsin, ona bərk-bərk sarılsın" - deyərdi. Belə sözləri eşidəndə Nastasya özündən asılı olmayaraq, qızarardı. Ancaq ciddi yepiskop sanki bunu görməzdi və qızın başı üstündən ruhun belə möhkəm birləşməsini görür və cismi də ruhla bərabər ya əbədi əzablara, ya da əbədi səadətə qovuşdurur".

Onun ixtiyarında olsa idi, əbədi səadəti seçərdi, yoxsa yaşamaq nəyinə lazım idi!

"O adamlar ki, öz cismlərindən imtina edirlər, öz təbii hallarından kənara çıxmaq istəyirlər, öz insan təbiətlərindən qaçırlar - onlar ağılsızdırlar. Onlar mələklərə dönmək əvəzinə, heyvanlara çevrilirlər, özlərini qaldırmaq əvəzinə, məhv edirlər..."

"Mən heç vaxt dönmərəm, dönmərəm! Heç vaxt!" Nastasya ürəyində and içmişdi: "yolumdan dönmərəm, alçalmaram!".

Ancaq İstanbul sahillərinə çatanda hər şeyi unutdu. Öz taleyinə boyun əyərək, boynu zəncirli rəfiqələrinin ardıyca gedirdi. Əynində sərbəst, türk qızlarına məxsus geniş ipək şalvar, üstündən uzun ipək kofta, qızlara məxsus zərif, yaşıl çarşab, üzünü və qızılı saçlarını gizlədən, yalnız burun hissədən azca geri qatlanmış rübənd, ayağında qızılı saplarla işlənmiş nazik ayaqqabılar...

Nastasya ayağını körpüyə qoyanda elə bildi ətrafda nə varsa, bütün dünya yırğalandı. Şəhərə baxdı. Şəhər dairəvi şəkildə irəli çıxmış kimi görünürdü. Saysız-hesabsız pəncərə guşələrində əks olunan günəş amansızlıqla yandırıb-yaxırdı. Hüznlü sərv ağacları şamları andırırdı. Qədim divarlardan şişuclu minarələr boylanırdı. O, asma körpüdə, çəlləklərin üstü ilə hoppana-hoppana, belini ilan kimi qıvrılda-qıvrılda, çevik, həyata susamış şəkildə bu yad, qorxulu, düşmən torpağına ayaq basdı... Üzücü kədər, bundan əvvəl dənizdə olduğu kimi, yenə boğazını tıxadı, ona elə gəldi ki, gözlərinin işığı çəkilir. Buna baxmayaraq inadkarcasına başını silkələyib qabağa tullandı, sanki arxadan gələn qoca Sinam ağanın ayağı altında qalmaqdan qorxdu. Körfəzin suları çirklə, zir-zibillə dolu idi - zibil anbarları, çürümüş taxtalar, balıqqulaqlarına yapışmış qətran kəsif bir üfunət saçırdı. Suların yuduğu torpaqlarda xırda gölməçələr, gillik, bataqlıq yaranmışdı. Ancaq nədənsə bura Qızıl Buynuz adlanırdı. Hanı buranın qızılı?

Ümumiyyətlə, burada qızılı nə var ki? Qızılı olan yalnız günəşdir, o da yerdən çox yüksəkdədir... Maili dar küçələr bir-birilə kəsişərək sanki Qızıl Buynuza tərəf qaçırdı. Üstü şəbəkəli köhnə taxta evlər bir-birinə tərəf elə əyilmişdi ki, sanki indicə uçacaqdı. Günəş küçələri tən yarıya bölmüşdü: yolun tən yarısı sərinlik idi. Ona görə də Sinam ağanın tapşırığı ilə əsirləri kölgəliklə aparırdılar. Sinam ağa bəlkə də öz yelkənli gəmisində axşamın düşməsini gözləmədiyinə təəssüflənirdi, çünki küçələrdə onun gətirdiyi bu qənimətlərə min cür göz baxırdı.




Küçələr yalnız kişilərlə dolu idi. Kiçik meydançalarda, fəvvarələrin kənarlarında, binaların kölgəliklərində, lap elə günəşin bişirdiyi boş yerlərdə də kişilər sıx-sıx oturmuşdular. Uzaqdan milçəklərə bənzəyirdilər, tərpənməz, qapqara. Təkcə onlara xidmət edənlər arabir su, şirniyyat və qızardılmış ət satdıqlarını bəyan edən qışqırıqlarla əyilib-qalxırdılar. Burada nə danışıq, nə mübahisə, nə səs, nə külək - heç nə yox idi, ancaq bir yığın kişi var idi. Həm də onlar danışa, mübahisə edə, dalaşa bilməzdilər, çünki məşğul idilər - hamı yeyirdi, çeynəyirdi, üstündən sərin su içirdi, yenidən yeyirdi. Müxtəlif qazanlarda bağırsaqlar, baş-ayaq, ürək-ciyər, tərəvəzlər bişirdi. Oturanların boyunlarının arxasından hiss olunurdu ki, iri tikələri acgözlüklə yeyirlər. Ancaq heç kimin də boğazında qalmırdı! Heç uzaqlaşmamış gəyirirdilər. Zir-zibil, qətran tüstüsü, sarımsaq, balıq iyi bir-birinə qarışmışdı. Atlar kimi, dəvələr kimi ayaq üstə, doymaq bilmədən yeyə-yeyə Sinam ağanın adamlarının küçə ilə apardıqları bü ağ qadınlara tamaşa edirdilər. Nəzərləri bir-bir, hər qadının üzərində ora-bura qaçır, sonra yavaş-yavaş ayaqlarına doğru sürünür, yapışqanlı, çirkli dodaqları ilə onlar cürbəcür səslər çıxarır, pişikləri xatırladırdılar. Ah, bu lənətə gəlmiş erkəklər, eybəcər köpəklər! O anda qadınlar bu lənətə gəlmiş bədənlərini tərk edib göyə uçmağa, ya da yerə girməyə hazır idilər, təki bu kişilərin baxışlarından tezliklə xilas ola biləydilər. Bu əzəmətli şəhər sanki gözlərdən ibarət idi; açıq-aşkar sırtıqlıqla, dayanmadan onları izləyirdi. Bu baxışlardan nə suya, nə də torpağa girməklə canını qurtara bilməzdin. Gözlər, baxışlar küçələrdə, taxta evlərin barmaqlıqları arxasında, ağacların yarpaqlarında, fəvvarələrin sularında, minarələrin irəliyə çıxmış ağ, sarı plitələrində, daş havarlarda, havada, uçan quşlarda, buludlarda - hər yerdə idi. Baxışları buz kimi soyuq, ilan kimi qorxulu, kədər kimi ürək parçalayan, inamsız, şübhəli idi, sanki bütün şəhər qadınlar üçün qorxulu həbsxana idi.

Nastasya çalışırdı bu gözləri, bu baxışları görməsin. Kaş ki, ruhdan düşməyəydi, bu gözləri unudaydı... Anasının nə vaxtsa dediyi sözləri xatırladı: "Gül, mənim körpəm, gül!". İndi hardasan ana?

Boğanaq bir külək əsirdi. Azğın günəş solğun qoxulu, elə işıqlanırdı, elə bil gözünü kor edəcək.

Evlərində olanda günəş budaqların sıx yarpaqları arasından elə zərif süzülərdi ki, yerdə müxtəlif krujevalar yaradardı, evləri günəşin altında, ətrafdakı parlaq yaşıllığın işığından yaşıla çalardı, qapıya qədər uzanan cığırın hər iki tərəfində otlar məxmərə oxşayırdı, altıaçıqdakı doğranmış ağcaqayın və palıd odunlar da günəşdən qəribə rəng alardı. İndi bunları kimə danışacam?

Bu yapdırıcı, məhvedici işıq seli isə sanki törətdiyi hansısa cinayətinin cəzası idi. Axı o, günahsız idi! Lap yumurtadan təzəcə çıxmış ətcəbala kimi! Kimə deyəsən?

Bəlkə ətrafdakıların günahının cəzasını da onlarla birgə olduğu üçün o, çəkməli olmuşdu? Allah bilir hərəsinin nə qədər günahı var? Nə qədər oğurluq ediblər, adam öldürüblər. İndi günəşdə qızınırlar, gülürlər, çeynəyirlər, udurlar. Oğlan uşaqları gəzəgəzə əsirlərə qışqıraraq nə isə deyir, əllərindəki daşları, toz-torpağı onların üstünə atırdılar. Xədimlər tənbəl-tənbəl üstlərinə tolazlanan toz-torpağı əlləri ilə yelləyib, özlərindən kənarlaşdırırdılar. Böyüklər, müşahidəçilər fit çalır, aranı qızışdırırdılar. Küçədə bir nəfər də olsun qadın qisminin gözə dəymirdi. Qadın qismindən küçədə yalnız bu bədbəxtlər idi, ən bədbəxti də Nastasya idi.

*(Ardı 29-cu səhifədə)*

# "Roksolana" romanından parça

*(Əvvəli 25-ci səhifədə)*

Çünki bu iyrənc baxışlar ən çox onun payına düşürdü. Bir-birlərinə zəncirlə, dəmir boyunduruqla bağlanmış bu qadınlar buradakı kişilər üçün qadın deyildi. Gözlər onların üzərindən sürüşərək, daha ləziz tikə axtarırdı. Bu tikə o idi, Nastasiya - türklər sayağı geyinmiş, balaca, zərif qızcığaz. İstanbul divarlarındakı yaşıl mamırlar kimi o da türə məxsus idi, bəlkə də Sinam ağanın arvadı və ya qızı idi? Bunun əhəmiyyəti yox idi. Əsas o idi ki, bu cavan, yaraşıqlı qadına baxmaqdan xoşlanırdılar, ona tərəf uçurdular, lap Lodosdan əsən ürək təntidən külək kimi...

Bu gözlərdən qurtulmaq üçün nəzərlərini İstanbulun divarlarına sarı çevirdi. O baxışlar Qızıl Buynuzdan başlamışdı. Tünd daşların arasından nəhəng qayalar, gah dördkünc, gah üçkünc, gah da dairəvi görünən minarə daha sonra onlara söykənmiş qədim sarayların xarabalıqları, bu sarayda yaşayanların izlərini xatırladan əşyaların qırıntıları ilə dolu xəndəklər, qurumuş, üstünü ot-ələf basmış şiri ağac kötükləri, bir az uzaqda dərələrin o üzündə enli yol görünürdü. Yola ağappaq daşlar döşənmişdi. yəqin yunan imperatorlarının dövründən qalmışdı. Döşlərdə adda-budda əkin yerləri görünürdü, sonra yenə yabanı bitkilər, məxmər və yəhudi ağaclarının solğun gülləri, qanqallar, günəşdən yanmış otlar, bellərində qırmızı palanı olan uzunqulaqlar - ətrafda göz işlədikcə bunları görürdü. Şəhər boyu uzanan daş hasar bu sirli şəhərin bədəni idi. Buradakı bütün həyat isə alışıb-yanan gözlərdəki azğın şəhvət və ehtiras üzərində qurulmuşdu. Hətta bütün dünyanın apostolları yığışıb dünyada sirli, müqəddəs zirvələrin olduğuna Nastasyanı inandırmaq istəsəydilər belə, o, yenə heç kimə inanmazdı, hətta onların özündə də nə isə bir günah axtarardı.

Qız özünü sakitləşdirmək üçün əbədi itirilmiş roqatinliləri beynindəki qırıq-kəsik xəyallarla sıraya düzür, gözləri önündə canlandırır, onları istanbullularla müqayisə edir, ancaq heç bir oxşarlıq tapa bilmirdi. Dayan, deyəsən bir oxşar tapmışdı. Çörəkbişirənin bu kişilərə oxşarlığı var idi. Roqatinlilər xoşxasiyyət, mülayim, ürəyiyumşaq, üzləri işıqlı, uşaq kimi sadəlövh idilər. Bunlar isə qupquru, günəşdən yanıb-qaralmış Potokdan olan daxmasını Sinaqoqun lap yaxınlığında tikilmiş tənbəl Vasiliyə oxşarlıqları vardı. Sinaqoqdakı yəhudilər onun daxmasını neçə dəfə uçurtsalar da, daxmasını bir addım da yana çəkməmişdi.

Yadına Vasilini salması Nastasiyanın kefini bir qədər açdı, qız hətta özü ilə oynamaq qərarına gəldi. O, əsir-zad deyildi, nə satılmışdı, nə də alınmışdı, nə də atası roqatinli keşiş idi. O, cavan türk qızı idi. Özü də qeyri-adi görünən bu yerlərdən idi. Heç bir dərd-səri olmayan, azad, hakim, varlı bir qız. Bəlkə də Sinam ağanın qızıdır, bəlkə də ondan da varlı bir adamın. Bu, vacib deyildi. Əsas odur ki, cavan, yaraşıqlı idi. Ona görə də baxışlar rəfiqələrinin üzərindən sürüşüb onda qərarlaşırdı. Onun nəfəsini Lodos küləyi kimi kəsirdi.

Ona görə də daha inamla irəliləyir, bütün damarları oynayır, hər əzələsi rəqs edir, əynindəki nazik ipəklər isə sanki bunları təkrarlayır, zahirə ötürür, içindən dərin bir ah çəkərək öz sirli sahibəsinin ayaqlarına döşənərək, onun dalınca sürünür, əsən külək kimi sanki o da ötənə-keçənə:

"Bax - bax, bir bax!" - deyirdi.

Ancaq birdən oyun amansızlıqla bitdi. Necə olmuşdusa Nastasiya fikir verməmişdi, İstanbul küçələrində həddən artıq heyvan gözə dəyirdi. Doğrudur, doğulduğu Roqatinin küçələrində də heyvan var idi, özü də yarmarka günləri lap çox olurdu. Yüyənli, yüyənsiz atlar, yarıyuxulu narazı-narazı anqıran uzunqulaqlar, sümük gəmirə-gəmirə dişlərini şaqqıldadan itlər, bitli quyruqlarını nazla təmizləyərək bellərini donqarlaşdırıb ətrafa meydan oxuyan pişiklər, məscid və fəvvarələrin yanında quruldayan göyərçinlər, ağacların budaqlarında cikkildəşən balaca quşlar - ətraf rəngarəng bir gözəllik içində olsa da, bu insan labirintində - iyrənc, sürüşkən baxışların nəfəs kəsən dumanından qurtarmaq mümkün deyildi.

Roqatində gördükləri bu əsirlər üçün əlçatmaz idi. Ona görə də gördüklərini çox tez unudurdular. Onları atıb-unutmuş, dənizin yad sahillərində tənha, köməksiz qoymuş, özü isə dənizin o biri sahilində qalmış Allahları kimi...

Birdən əsirlərin bu hüznlü dəstəsinin qarşısına haradansa sanki İstanbul küçələrinin toz-torpağından yaranmış boz, tüklü, hürkmüş qoyun sürüsü çıxdı. Qoyunlar bir-birinə qarışmış, hürkmüş halda sıçrayır, bir-birinə qısılıb kütləşir, kor kimi gah bu, gah da digər tərəfə toplaşırdılar. Başlarında rəngi bilinməyən nə vaxtsa ağ olduğu güman edilən, şiş papaqlı çobanlar sürünü haylayır, əllərindəki çubuqla onların böyürlərindən var gücləri ilə vurur, deyəsən ya satlıq, ya da kəsim üçün aparırdılar. Sürünün başında boynu zınqırovlu qara keçi gedirdi, lap Sinam ağa kimi... Mis zınqırov keçinin tükləri arasından küt, aramsız, əzabverici bir səslə səslənirdi, eynən Nastasiyanın ürəyi kimi...

Onların bu sürüdən bir fərqi yox idi. Bu heyvanları da insanlar kimi qovurdular.

Ya da ki, insanları qoyunlar kimi. Bu zınqırov səsləri onlara, elə bunlara da məhv olduqlarını, qarşıda onları nifrət və ölüm gözlədiyini xəbər verirdi.

- Hiy! Hiy! - deyə bolqar çobanlar tutqun səslə qoyunları haylayırdılar. Bu səs sanki Nastasiyanın ürəyindən qopub ona: "Dayan! Dayan!" - deyirdi. Birdən-birə bədəninin quruduğunu hiss etdi, əvvəlki zərifliyini, çevikliyini itirirdi, ayaqları sözünə baxmır, yerə mıxlanırdı, beləcə yerə yıxıla, yerə dəyib ölə bilərdi. Kaş ki, bu yad şəhərdə yarpaqqurdu kimi üzərində gəzən baxışlardan, qorxu, təlaş, alçalmaqdan tezliklə qurtara biləydi, kaş boynu tezliklə vurulaydı, bu əzablara son qoyulaydı...

Ancaq yenə taleyi ona acıdı. Qəfildən onları aparan xədimlər ikimərtəbəli taxta evə tərəf döndülər. Ev öz sahibi Sinam ağa kimi köhnə idi. Nastasiya gözünün ucu ilə ətrafı seyr etdi. Yuxarı mərtəbənin pəncərələri dərin oyuqlarda yerləşirdi, qabağında taxta barmaqlıqlar vardı. İri möhkəm qapıda ağır dəmir həlqələr gözə çarpırdı. Evin qabağında divara doğru əyilmiş ağac yıxılmağa hazır görünürdü.

İstanbulun sonsuz küçələrindən, ikrah və nifrət saçan baxışlarından sonra onlar bu sakit, taxta barmaqlıqlı həbsxanaya atıldılar. Yerə köhnə xalılar sərilmiş, ora-bura mütəkkələr, mis qablar və başqa əşyalar atılmışdı. Nəhayət, qadınların dəmir boyunduruqları açıldı. Onlara suyun və digər lazımlı şeylərin yerini göstərdilər.

İndi burada əsrlərcə qalmaq, hətta bu divarlar arasında ölmək də olardı. Onlar alçaldıcı, təhqiramiz baxışlardan qurtulmuşdular, özləri də sağ idilər, yaşayırdılar!

Sinam ağa əsirlərin necə yerləşdiyini öz gözləri ilə görəndən sonra əminliklə qapıları bağlayıb dodaqaltı şükranlıq duası oxuyub, Allahın mərhəmətinə şükürlər etdi və sonra evin kişilər üçün ayrılmış hissəsinə keçdi.

Sinam ağa düşündü: İndi səbirlə öz zamanını gözləməli idi. Həmin sarı-qırmızı saçlı qızı beh aldığı venetsiyalı tacirə satacaqdı. O vaxta qədər isə bu biri əsirlərlə qalacaq. Tələsmək lazım deyildi. Onsuz da gəlirin yarısı onun deyildi. Başqasının olan şeyi isə verməyə tələsmək lazım deyil - deyə o, ürəyindəki Allah kəlamını təkrarladı:

"Əgər Allah yolunda xərcləsəniz, Allah bunun əvəzini sizə ikiqat verər... O, hər şeyi görən və biləndir!"

*Tərcümə edən:*
**Gülafət DAVUDOVA**

**Ədəbiyyat qəzeti.- 2017.- 17 iyun.- S. 25; 29.**